elmi seminarımız başladı. “Qarabağ” hotelinin konfrans zalında “Böyük narahat adam” haqqında danışan professor Hamlet İsaxanlı Əhməd bəyin keçdiyi həyat yolundan, böyük mütəfəkkirin Türkiyə və Azərbaycan üçün gördüyü misilsiz işlərdən bəhs etdi. Əminik ki, Əhməd bəyin ruhu doğulub boya-başa çatdığı azad Şuşada anıldığı üçün bir daha şad oldu.

Seminardan sonra bu möcüzəli şəhəri təkrar gəzdik, sanki hafizəmizə həkk etmək istəyirdik. Çünki bir sonrakı səfərimiz zamanı yeni bir Şuşa ilə qarşılaşacağımızı bilirdik: şəhərdə quruculuq işlərinin sürəti bundan xəbər verirdi.

Bakıya qayıtmaq saatı gəldiyində bələdçimiz yolüstü yenilənən Füzuli şəhəri haqqında da məlumat verməyi unutmadı; Füzuli Hava Limanı ilə də tanış olduq.

Bir məqamı xüsusi qeyd etmək yerinə düşər: Nə Şuşada, nə də Füzulidə rastlaşdığımız insanların üzündə həyəcan, nigarançılıq yoxdur. Şəhərdə “qəribə” rahat adamlar gəzir. Bunun isə tək bir adı var: ÜMİD!

Azadlıq hər mənada gözəl hissdir, hələ söhbət Vətəndən gedirsə! Həyatımda ilk dəfə idi Şuşaya gedirdim. Əslində, bu günün xəyalını çox qurmuşdum, amma belə əsrarəngiz olacağını düşünə bilməmişdim. Mənə bu təkrarsız xatirəni yaşadan təşkilatçılara dərin təşəkkürümü bildirirəm! Sizinlə hər yola varam!

Doğma Şuşa, salamat qal! Ümidlərin doğrulacaq, əminik! Həmin günlərdə yenidən görüşərik!

**Mədinə Karahan,**
*filologiya üzrə fəlsəfə doktoru,*
*Xəzər Universitetinin müəllimi*

# SƏFƏR MƏNƏ YENİ DƏYƏRLİ İNSANLARI TAPMAQDA VƏSİLƏ OLDU



*Mirşərəf Təhməzov*

Şuşa səfərində dəyərli Prof. Hamlet İsaxanlının rəsmiyyətdən və pafosdan uzaq, hamının dil tapa biləcəyi, nə qədər rahat adam olduğunu gördüm. Baxmayaraq ki, bunu bilirdim, amma bir daha əmin oldum.

İsaxan müəllimi həmişə zəhmli insan kimi tanıyırdım, amma burada onun da bir o qədər mülayim xarakterli olduğunu kəşf etdim.

Səfərin təşkilində zəhmət çəkən, işığına yığışdığımız Zərifə xanıma və onun qızlarına səmimi təşəkkürümü bildirirəm.

Müəllimlərimiz, məzunlarımız və qonaqlarla yol yoldaşı və həmsöhbət olmaq mənə mənəvi zövq verdi. Bu səfər mənə yeni dəyərli insanları tapmaqda vəsilə oldu. Hər biri hörmətə layiq şəxsiyyətlərdir.

Ustad aşıq Ramini tanıdım və hoteldə klassik ədəbiyyatımızdan bəzi nümunələri müzakirə etdik.

Tur rəhbəri Orxan da sağ olsun!

Xəzər Universitetinin Multimedia Mərkəzinin fotoqrafı Mustafaya təşəkkür!

Və nəhayət, bir yerdə təhsil aldığım, amma səfər boyunca tanımadığım, Füzuli hava limanında mən yorğun halda oturmuşkən "çəkimmi şəklini?" deyərək, sanki mənə qanad verən Ofelya xanıma (məzun) təşəkkür və sayqılar göndərirəm.

**Mirşərəf Təhməzov,**
*məzun (2004-2008)*